# GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİN BƏXTİYAR VAHABZADƏ HAQQINDA SÖYLƏDİKLƏRİ

Bəxtiyar Vahabzadə şəxsiyyəti və yaradıcılığı ilə xalqın milli təfəkkürünün formalaşmasına xidmət etmiş, onu milli dirçəlişə səsləmiş, istiqlaliyyət uğrunda mübarizədə əvəzsiz rol oynamışdır. O, hər zaman azadlıq carçısı olmuş, ən çətin anlarda belə güc və silah qarşısında baş əyməmiş, əqidəsindən dönməyən şair, mübariz millət vəkili, yorulmaz ictimai xadim kimi xalqın müdafiəsinə qalxmışdır.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Ümummilli Lideri**

Bəxtiyar Vahabzadə mübariz şəxsiyyəti və çoxşaxəli fəaliyyəti ilə XX əsrin ikinci yarısından etibarən Azərbaycan bədii-ictimai fikir tarixinə parlaq səhifələr yazmış qüdrətli simalardandır. Onun Vətənə, millətə və doğma ana dilinə sonsuz məhəbbət ifadə edən, dərin poetik-fəlsəfi düşüncələrlə zəngin irsi daim mədəni-mənəvi dəyərlərə ehtiram, milli azadlıq ideallarına bağlılıq və istiqlal məfkurəsinə sədaqət hissi aşılamışdır. Sənətkar ədəbi və elmi yaradıcılığını uzun illər pedaqoji fəaliyyəti ilə uğurla əlaqələndirərək, bir neçə nəslin milli təfəkkürünün formalaşmasında müstəsna rol oynamışdır. Bəxtiyar Vahabzadə ictimai xadim kimi xalqın taleyüklü məsələlərinə münasibətdə həmişə əsl ziyalı mövqeyi nümayiş etdirmişdir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Hörmətli Bəxtiyar Vahabzadəyə!

Sizi, Azərbaycan xalqının böyük istiqlal şairini anadan olmağınızın 70 illiyi münasibətilə təbrik etməkdən böyük şərəf duyuram. Sizin ədəbi yaradıcılığınız bütün türk dünyasının mənəvi birliyi və yüksəlişi ilə də yaxından əlaqəlidir. Odur ki, sizə sadəcə azərbaycanlı qardaşlarımızın deyil, çağdaş türk dünyasının böyük bir qələmustadı olaraq salamlayıram.Əsərləriniz ölkəm Türkiyədə də böyük maraqla oxunmaqda,tədqiq edilməkdə və bəyənilməkdədir. Türkiyə Cümhuriyyətinə bəslədiyiniz sevgi xalqlarımız arasındakı dostluq və qardaşlıq əlaqələrinin güclənməsinə əhəmiyyətli dərəcədə təkan vermişdir. Bu istiqamətdə xeyirxah fəaliyyətinizi bundan sonra da davam etdirəcəyinizə əminəm.Sizə Azərbaycanın haqq işi və inkişafı yolunda apardığınız mübarizədə uğurlar, cansağlığı və səadət diləyirəm.

**Süleyman Dəmirəl,**
**Türkiyə Cümhuriyyətinin sabiq prezidenti**

Bəxtiyar hər nə yazırsa, ürəkdən yazır, təbii yazır, təmənnasız yazır. Biz onun lirikasının avazında saxta notlar hiss etmirik. Bəxtiyarın sənətkar kimi təqdirəlayiq cəhətlərindən biri də onun şeir dili və doğma ana dilinə dərin bir məhəbbət duyulur.

Doğma ana dilinə münasibət, bu dildə yazıb-yaratmaq dünya mədəniyyətinin, dünya ədəbiyyatının böyük ənənələrindəndir.

Hər xalqın ədəbiyyatı həmişə onun doğma ana dilində yaranmışdır.

**İlyas Əfəndiyev,**
**Xalq yazıçısı**

Bəxtiyar Vahabzadə sözün əsl mənasında şairdir. Onun poetik fırçasının çəkdiyi lövhələr rəngarəng və maraqlıdır. Dili şirəli və koloritlidir. Vahabzadənin poeziyası - düşüncələr poeziyasıdır. Bu düşüncələr bəzən həyatın üst qatlarına toxunsa da, şeirlərinin bir qismində ayrı-ayrı motivlər - məsələn, yaxınlaşmaqda olan qocalığın kədərli müjdəçisi olan ağaran saçlar motivi təkrar olunsa da,ümumiyyətlə, Vahabzadənin poeziyası müasir Azərbaycan ədəbiyyatının maraqlı hadisələrindəndir. Şair ən yaxşı şeirlərində oxucuları ilə məhrəmanə söhbət edir. Adama elə gəlir ki, o daha bir şeir yazmaq istəməmiş, öz dəruni fikirlərini ən yaxın dostları – oxucuları ilə bölüşməyi arzulamışdır. Şairin ovqatı qeyri-ixtiyari olaraq sizə sirayət edir sizi sevinc, kədər bürüyür. Siz əvvəllər, bəlkə də, qəlbinizdə bu cür emosiyalar doğurmayan şeylərin, hadisələrin mənası haqqında düşünməyə başlayırsınız. İndi isə həmin şeylər, hadisələr dəqiq tapılmış şairanə sözlərin gücü ilə qat-qat mühüm əhəmiyyət kəsb edir. Onlar sizi fəaliyyətə, məhəbbətə, nifrətə çağırır.

***

Şair Bəxtiyarın bəxtiyarlığı onun qibtə ediləcək dərəcədə böyük olan poetik istedaddır. Bu yaradıcılıq istedadı ona dərin xalq məhəbbəti qazandırmışdır. Onu Vətənin sevimli şairi etmişdir. Belə bir tale səadətdir. Belə bir İnsan həqiqətən bəxtiyardır. Bu bəxtiyarlıq bir insan, bir vətəndaş, bir nəğməkarın bəxtiyarlığıdır. Mən Bəxtiyarı belə tanımışam, belə duymuşam, belə sevmişəm.

**Rəsul Rza,**
**Xalq şairi**

B.Vahabzadə Azərbaycan xalqının yetirdiyi o sənətkarlardan biridir ki, qələmini əlinə aldığı gündən etibarən öz doğma hiss və həyəcanlarını ağ kağıza köçürmüş, ağ kağızda ifadə etmişdir. Xalqın sevinci ilə yaşamış, xalqın dərdinə, qəminə, ələminə şərik çıxmışdır və Bəxtiyar Vahabzadə şübhəsiz xoşbəxt sənətkardır. Xoşbəxt bir sənətkardır ona görə ki, xalq onu sevir, onun özünün nüfuzlu, mötəbər sirdaşı, dərddaşı hesab edir. Bəxtiyar Vahabzadə xoşbəxt sənətkardır ona görə ki, onun sənəti son dərəcə milli olmağıyla bərabər, eyni zamanda, bəşəri bir səciyyə daşıyır. Və ona görə də onun çoxmilyonluq oxucu auditoriyası var. Onun şeiri coğrafi və milli çərçivələr, sərhədlər tanımır.

**Elçin,**
**Xalq yazıçısı**

Torpağımıza azadlıq, müstəqillik baharının gəlməsini ilk duyan, bu baharın gəlməsi üçün illər boyu çarpışan və bu baharı ilkin salamlayan, müjdələyən şairlərimizdən biri də Bəxtiyar Vahabzadədir. Sovet senzura sisteminin dar çərçivələri içində də Bəxtiyar Vahabzadə öz sözünü deyə bilmiş, hələ o illər Şəki qəzetində çap etdirdiyi "Gülüstan" poemasında xalqımızın tarixi faciəsi haqqında, bölünməsi, ikiyə ayrılması, parçalanması və əsarətə düşməsi haqqında təsirli, yanıqlı bir dillə söz açmışdı. Son beş-altı ildə də azad, müstəqil Azərbaycan uğrunda mübarizənin çətin yollarında Bəxtiyar müəllimi həmişə ön sıralarda görmüşük, görürük və inşallah, hələ çox illər görəcəyik. Hər bir böyük şairimiz kimi Bəxtiyar Vahabzadənin də bəzən başa düşülmədiyi, niyyətinin, sözünün tərs yozulduğu məqamlar olub. Amma bütün böyük sənətkarlar kimi o, səbir, dözüm sınağından da ləyaqətlə keçə bilib.

**Anar,**
**Xalq yazıçısı**

Vahabzadənin poetik təfəkkür mədəniyyəti təbiətcə millidir. Bu, müstəsna dərəcədə zəruri haldır ki, sən övladı olduğun xalqın nitq hissəsində fel olmağı bacarasan, xalqının canlı dil

memarlığına öz töhfəni verə biləsən. Bununla yanaşı, Vahabzadənin poetik təfəkkür mədəniyyəti daha üstün mahiyyət kəsb edir və millilikdən ümumbəşəri fövqə qalxır. Milli və beynəlmiləl münasibətlər problemi günümüzün canlı mübahisələrə çevrilən məsələlərindən biridir və bu problem... öz mütərəqqiliyini, obrazlılığını, nadir əhatəliyini və məhsuldarlığını bir daha Vahabzadə yaradıcılığında tapıb. İndiki halda sən azərbaycanlı şairi oxuyanda - dünyanı oxuyursan. Bundan başqa mən Vahabzadənin görkəmli sənətkar – şair üstünlüklərini, çox güclü cəhətlərini qeyd etmək istərdim. Lirizm və vətəndaşlıq Bəxtiyarın yaradıcılığında ayrılmaz qoşa simlərdir və bu simlər onun şəxsi və ictimai dünyagörüşünün qüdrətliliyinə bir daha şəhadət verir.

***

O, vətənpərvərdir, o aqildir, sözün yaxşı mənasında nəsihət verən, yol göstərən sənətkardır. Vahabzadənin başqa kamil cəhətlərindən biri də odur ki, şair öz əsərlərində tarixi müasirlik qədər yaşada bilir. Keçmişə görə əzab çəkmək, ona bu günün gözüylə baxmaq - Bəxtiyarın mövzu dairəsinin genişliyindən, mürəkkəbliyindən və zənginliyindən xəbər verir.

***

"Yaradıbdır inam məni, mən inamın övladıyam..." Məncə, bu misralar şairin yaradıcılığı üçün çox rəmzi və xarakterikdir. Bəxtiyar Vahabzadə öz möhtəşəm poeziya məbədini ucaltmaqdadır. O qüdrətlidir. Bu məbədi ucaldan əllər mahir və qadir əllərdir. Bu əllərin qoyduğu özül möhkəm və gözəldir. Oxucu bu məbədi tez-tez ziyarət etməlidir.

**Çingiz Aytmatov,**
**Qırğızıstanın Xalq yazıçısı**

Bəxtiyarın müxtəlif millətlərdən olan oxucuları, həmkarları onun son dərəcə milli və beynəlmiləl şair olduğunu ayrıca qeyd və təsdiq etmişlər. Bu millilik və beynəlmiləlliyin vəhdəti onun beynəlxalq mövzuda yazdığı əsərlərində və ümumiyyətlə, siyasi lirikasında çox parlaq ifadəsini tapmışdır.

**Məmməd Cəfər Cəfərov,**
**akademik**

Mən Vahabzadənin ədəbi portretini yazmıram, məqsədim onun poeziyasına təhlil vermək də deyildir. Mən yalnız onu demək istəyirəm ki, B.Vahabzadə son dərəcə sürətlə artan, yaradıcılığının həm mövzu dairəsini genişləndirməyə, həm də müstəqil bədii üslubunu yaratmağa inadla çalışan və bunun üçün də get-gedə oxucuların daha da rəğbətini qazanan görkəmli bir şairdir. Tənqidçilər, adətən, lirik və epik əsərlər yaradan şairin bu janrlardan hansında daha artıq müvəffəqiyyət qazandığını təyin eləməyə meyl göstərirlər. Vahabzadə hər iki janrda eyni dərəcədə tələbkardır. Onun yaradıcılığı öz fikri-bədii istiqaməti etibarilə müasir şeirimizin baş xəttinə sadiqdir və bu yolda şairi daha böyük nailiyyətlər gözləyir. Mənim buna heç şübhəm yoxdur.

**Mehdi Hüseyn,**
**Xalq yazıçısı**

Bəxtiyar Vahabzadə şeirimizin Füzuli, Vaqif, Sabir, Səməd Vurğun, Aşıq Ələsgər, Şəhriyar bulağından su içmişdir. O, sözü eləgözəl oynadır, elə parlaq təzadlar yaradır, fikri gözlənilmədən elə döndərir, elə dərinləşdirir və fəlsəfi ümumiləşdirmələr səviyyəsinə elə qaldırır ki, oxuyanda valeh olursan, hədsiz sevinc və mənəvi estetik ləzzət duyursan. Lakin bu, sadəcə, adi sevinc və ləzzət deyil, fikir və məna ilə doludur, insanı mütləq düşündürür.

**Mirzə İbrahimov,**
**Xalq yazıçısı**

Bəxtiyar Vahabzadənin yaradıcılığında mənim xoşuma gələn nədir? Bu suala belə cavab verərəm: ilk növbədə vətəndaşlıq, azərbaycanlılıq, sonra da cəsarət, dərinlik. Onun respublikamızdan kənarlarda çap olunan şeirlərində imzasının yanında "Azərbaycan" sözünü yazmamaq da olar.

Sanki onun bütün yaradıcılığında "Azərbaycan" möhürü vurulmuşdur. "Vətəndaş" şeiri buna yaxşı sübutdur.

**Süleyman Rüstəm,**
**Xalq şairi**

Bu gün müasir Azərbaycan şeirini – bu böyük milli mədəniyyətimizi ləyaqətlə təmsil edən, biz oxucularına yeni-yeni, təzə-tər misralar bəxş edən vətənpərvər bir şair ürəyi həmişəki eşq ilə çırpınır. O oxunur, sevilir, sevir.

**Nəriman Həsənzadə,**
**Xalq şairi**

"Vicdan", "Yağışdan sonra", "İkinci səs", "Yollara iz düşür" kimi müvəffəqiyyətlə tamaşaya qoyulmuş pyeslərində B.Vahabzadə, əslində, elə şeir və poemalarındakı mənəvi-əxlaqi problemləri qaldırır. Lakin bu əsərlər onun istedadının yeni bir sahəsini, dramatik təxəyyülün maraqlı imkanlarını nümayiş etdirir.

**Bəkir Nəbiyev,**
**akademik**

Bəxtiyar Vahabzadə deyir ki, elə uşaq doğan kimi adam ana olmur. Analıq qadın üçün çox böyük rütbədir. Qeyrəti, namusu yaşa da bilən qadınlar axırda gəlib ana olurlar. Analıq müqəddəslik mərtəbəsidir. Qeyrət, namus isə ağrıya-acıya dözə bilmək tələb eləyir.

**Fikrət Qoca,**
**Xalq şairi**

Mənim fikrimcə, Bəxtiyarı xalqa və oxucularına sevdirən cəhətlərdən ən başlıcası şeirlərind əki vətəndaşlıq hissinin güclü olmasıdır. Sən dünyamızda baş verən hadisələri həssaslıqla izləyən şairlərimizdənsən. Həyatda baş verən müsbət hadisələri ürək açıqlığı, ilhamla tərənnüm etdiyin kimi, mənfi hallarla, onları törədən dönüklərə, elinə, obasına arxa çevirənlərə, dilini, millətini, vətənini ağalarına xidmət müqabilində dananlara qəzəbini gizlədə bilmirsən. Belə hallarda Bəxtiyarın səsi daha da gur eşidilir.

**Balaş Azəroğlu,**
**Xalq şairi**

B.Vahabzadənin şeir və poemalarının ən yaxşı nümunələri öz xalqının tarixi mövqeyini dərindən dərk etmiş ayıq gözlü, cəsarətli, vətəndaş şair qələmindən çıxmışdır. B.Vahabzadə sənətin yoxuşları ilə irəliləyən bir sənətkardır. Bu yolda onun hər bir qələbəsi həm də Azərbaycan şeirinin qələbələrindəndir.

**Xəlil Rza Ulutürk,**
**Xalq şair**

İnanırsan ki, Bəxtiyar şeirinin bulaqları bolluqdadır, bu çeşmələr axa-axa, birləşə-birləşə bütün bir çaya çevrilməkdədir. Bəxtiyar şeiri xalqımızın şeriyyət çeşmələrindən bəhrələnməkdir. Bu şeir hələ daha da gur şəlalə kimi çağlayacaqdır. Vaxtilə "çəlimsiz oğlan" kimi görünən bu şair

şeir dünyasında çox qüdrətli, bir sel olmuşdur. Nə Bəxtiyar, nə də Bəxtiyar şeiri mövsümi əlbəsə kimi dəyişməyəcəkdir, onun addımları əbədiləşəcəkdir.

O, Azərbaycan şeirində abidə kimi qalacaqdır. Şair Bəxtiyar bir şeir bəxtiyarı kimi bu gün də bəxtiyardır, sabahına-gələcəyinə öz əlidoluluğu, alnıaçıqlığı ilə bəxtiyardır. Bu gün Bəxtiyarın şeirləri, şeir kitabları dil-dil, ələl gəzir.

**Süleyman Rəhimov,**
**Xalq yazıçısı**

Bəxtiyar poeziyası döyüşdür - o, ictimai haqsızlıqla, bigan ələrlə, şöhrətpərəstlərlə, ikiüzlül ərlə, qorxaq və əxlaqı natəmizlərlə döyüşür. Bəxtiyarın zəkalı, tutarlı, qaynar, xoşsözlü şeiri gözümüzün qarşısında doğma lövhələr yaradır; başı qarlı Kəpəz, Şahdağ, Savalan, Kürün, Arazın uğultulu qıjovları, Muğanın, Şirvanın il boyu yaşıl donlu, ucsuz-bucaqsız vadiləri vəsf olunur; onun şeirində coşğun Xəzər, mavi, zümrüd səma, mehriban cənub günəşimiz canlanır.

**Niyazi,**
**Xalq artisti**

B.Vahabzadənin bədii təfəkküründə zaman yaddaşı xüsusilə güclüdür; şairin bütün hiss-həyəcanları konkret zaman hüduduna verilir, onu düşündürən təzadların böyük bir qismidə zaman kontekstində meydana çıxır. Zamana münasibət şairin təfəkkürünə sitat kimi gəlmir, bədii düşüncənin məntiqi ilə diqtə edilir. O, ruhu etibarilə üsyançı idi, sözün yaxşı mənasında millətçi idi. O, öz millətini həmişə öndə gedən millətlərin arasında görmək istəyirdi. Ana dilinin saflığı uğrunda mübariz oldu, bu yoldan dönməz oldu.

**Nizami Cəfərov,**
**akademik**

Bəxtiyar Vahabzadənin düşüncəsi dərin, ürəyi nazik, dili kəskin və qələmi itidir. O, həm düşüncə, həm də duyğu şairidir. Və eyni zamanda, alim və mübariz bir yazıçıdır. Şeirləri duyğulu olduğu qədər düşüncədəndə zəngindir. O, fəlsəfi fikirlərini şeir dili ilə ifadə edən nadir şairlərdəndir. Onun fikirləri bəşəri, lakin duyğuları millidir. Mən onu "Gülüstan" poeması ilə tanımağa başlamışam. "Gülüstan" poeması ayrılıq nəğməsi olduğu halda, ayrılmışları birləşməyə çağıran bir manifest kimidir. "Gülüstan" poeması bölünən və kökündən ayrılan bir xalqın etiraz qışqırıqlarıdır.

**Cavad Heyət,**
**professor**

Rus dinləyicisi üçün Azərbaycan dili, hətta kin-küdurətin ifadə anlarında belə, çox yumşaq səslənir. Dilin fonetikasının özülündə bir qılıq, istilik, həzinlik, nəğməlilik gizlənmişdir. Bəxtiyarı dinləyəndə, dili bilməsən də, onun şeirləri adama şirin-soy gəlir. Hətta sətri tərcüməni oxuyanda dilin gözəlliyi arxasında gizlənmiş dərin qəm və kədəri hiss edirsən. Elə bil ki, Azərbaycan narıdır: şirəsini içirsən - şirindir, qabıqlı yesən acıdır.

**Yevgeni Yevtuşenko,**
**rus şairi**

Gənclik illərindən bu günəcən xalqımızın çətin, sınaq günlərində həmişə öz vətəndaş qətiyyətini, sənətkar mövqeyini bildirən, kəsərli sözünü cəsarətlə deyən, əqidəsindən dönməyən bütöv şəxsiyyət, bir sənətiçi kimi mənanın, fikrin cövhərinə, mayasına, toxumuna can atan, oxucusunu yatmağa qoymayıb vətənin, vətən içində haqqın, ədalətin, insafın və insanlığın keşiyində

ayıq-sayıq dayanmağa səsləyən, yaradıcılığı təbiət kimi zəngin, bəhrəli olmasına baxmayaraq həmişə axtarışda, həmişə narahat, özündən narazı, fəlsəfi fikirlərlə yanaşı adi hadisələri, sadə mövzuları ruhundakı tükənməz lirika qatından, poetik duyğusundan keçirərək şeiriyyətə, mahnıya çevirməyi bacaran, ənənəvi və milli olduğu qədər bəşəri olan canlı klassikimiz sevimli, doğma və əziz Bəxtiyar Vahabzadə...

**Hüseynbala Mirələmov,**
**professor**

İstər poemalarda, istər şeirlərdə bir-birini əvəz edən kövrək duyğular, zərif düşüncələr, həssas fikirlər, kəskin etirazlar oxucunun yarasına məlhəm qoyur, ürəyindən tikan çıxardır. Bu kitaba qədər Bəxtiyar müəllim öz oxucularının üzünə otuz doqquzuncu qapını açıbsa, yeni kitabda üzümüzə nağıllardakı kimi sirli-sehirli qırxıncı qapı açılır. Bu qapıdan içəri girəndə gözümüzə bir sandıq dəyir. Qulağımıza sandıqdan səslər gəlir. Bəxtiyar Vahabzadə açır sandığı, tökür pambığı.

**Zəlimxan Yaqub,**
**Xalq şairi**

Hər bir insanın öz ömür yolu olduğu kimi, hər bir xalqın, millətin də öz ömür yolu var. Bu yol heç də həmişə güllü-çiçəkli çəmənliklərdən keçib getmir. Bəzən uçuruma da dirənir. O uçuruma yuvarlanıb məhv olmaq, dilini, dinini, milli varlığını itirmək təhlükəsi meydana çıxanda, qabağa düşüb öz xalqını uçurum üstündəki körpüdən keçirən, hətta arada imkan tapıb o körpünün beş-üç qopan daşını da yerinə qoyan şəxsiyyətlərə xalq həmişə borcludur. Bəxtiyar Vahabzadə belə şəxsiyyətlərdəndir. O, bir şair kimi bizim milli varlığımızı həm ifadə edib, həm də qoruyub. Amma biz onu bu gün də qoruya bilmirik. Şərdən, böhtandan, haqqında yazılan cürbəcür hərzə-hədyandan... Allah Sizi qorusun, Bəxtiyar müəllim!

**Ramiz Rövşən,**
**şair**

B.Vahabzadə bütün ölkədə tanınan və sevilən bir şairdir. Mən onu həm İnsan, həm də sənətkar kimi yaxşı tanıyıram. Onun poeziyasında Şərqə məxsus bütün gözəl keyfiyyətlər əksini tapıb. O, xalq şairidir, laureatdır, ən böyük mükafatlara layiq görülüb. Lakin ən böyük mükafatı xalqın sevgisidir. Bir cavan oğlan mənə Bəxtiyarın şeirini ana dilində oxudu, sonra isə tərcümə elədi və dedi:- Bu, bizim Bəxtiyarın şeiridir.

Şərqdə ən hörmətli adamları soyadı ilə deyil, adı ilə çağırırlar. Məsələn, Abay, Sabir, Səməd və b. Bəxtiyarın həm bədii yaradıcılığı, həm də ictimai fəaliyyəti hər cür hörmətə layiqdir.

**Oljas Süleymenov,**
**Qazax yazıçısı**

Ağrı və əzab... Bu sözlər xalq şairinin poetik dilində tamamilə yeni məna kəsb edir. Əslində, bu sözlər əbədi narahatlığın epitetləridir. Şair özünü dərketmə yollarında kamilliyə, mənəvi yetkinliyə və saflığa çağırış şüarını qəbul edir. Bu yol isə ağrılarla, əzablarla gedilir... Ağrı və əzab Bəxtiyar poeziyasında sevincə, nəşəyə aparan yoldur.

**Vaqif Yusifli,**
**filologiya elmləri doktoru**